**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# B.SPİNOZANIN PANTEİZMİ VƏ MÜSƏLMAN ŞƏRQİNİN VƏHDƏTİ-VÜCUD TƏLİMİ (MÜQAYİSƏLİ TƏHLİL)

İxtisas: 7210.01 – Fəlsəfə tarixi

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Zaur Firidun oğlu Rəşidov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun "Azərbaycan fəlsəfə tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Fəlsəfə elmləri doktoru, dosent
**Arzu Əşrəf qızı Hacıyeva**

Rəsmi opponentlər: Fəlsəfə elmləri doktoru, professor
**Rəbiyyət Nurullah qızı Aslanova**

Fəlsəfə elmləri doktoru, professor
**Cahangir Rza oğlu Məmmədov**

Fəlsəfə üzrə fəlsəfə doktoru
**Qadir Bilman oğlu Səfərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Fəlsəfə elmləri doktoru
__________ **İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
__________ **Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru, dosent
__________ **Afaq Sultan qızı Məmmədova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Yaşadığımız əsrdə dünyadakı müxtəlif cəmiyyətlərdə baş verən təlatümlü proseslər və bu proseslərin getdikcə xeyli dərəcədə gərginləşərək daha ciddi problemlərə çevrilməsi ilə əlaqədar olaraq, xüsusi aktuallıq qazanmağa başlayan mədəniyyətlərarası dialoqların əhəmiyyəti günbəgün artmaqdadır. Məhz belə dialoqlarda müxtəlif mədəniyyətlərin bir araya gəlməsi və dövrümüz üçün olduqca vacib olan tərəflərin qarşılıqlı fikir mübadiləsinin gerçəkləşməsi mümkünləşir. Bu cəhətdən, Qərb və Şərqin müxtəlif fəlsəfi təlimlərdəki başlıca fəlsəfi ideyaların müqayisəli şəkildə təhlili də, ümumilikdə mədəniyyətlərarası dialoqların daha uğurlu nəticələnməsinə xidmət edən mühüm faktorlar sırasındadır.

Tədqiqat mövzusu olan Benedikt Spinozanın panteizm fəlsəfəsi-spinozizmlə sufizmin vəhdəti-vücud təliminin müqayisəli təhlili də bu baxımdan xüsusi aktuallığı ilə seçilməkdədir. Belə ki, müəyyən tarixi dönəmlərdə bu iki təlim, məkan cəhətdən də bir-biri ilə sıx şəkildə bağlı olmuşdur. Əsrlər boyu Spinozanın əcdadları, onun fəlsəfi görüşlərini formalaşdıran filosofların məskəni, müxtəlif mədəniyyətlərin vəhdətdə qovuşduğu Əndəlis, həm də vəhdəti-vücud təliminin əsas nümayəndələrindən sayılan İbn Ərəbi, İbn Fərid, İbn Səbin və digər məşhur sufilərin də vətənidir. Orta əsrlərdə adı gedən məkanda mövcud olan islam, yəhudi və xristian fəlsəfi məktəbləri öz ilkin istiqamətləri üzrə inkişaf etməkdən əlavə, həm də bir-birini həmahəng şəkildə tamamlamışdırlar. Orta əsr Əndəlis fəlsəfi məktəblərinə xas olan bu kimi məqamların da nəzərə alınması, müqayisəli təhlillərə əsaslanan tədqiqat işinin aktuallığını artıran başlıca amillərdəndir.

Tədqiqatın aktuallığını artıran başlıca amillərdən biri də müəyyən tarixi məqamlarda kəsişərək ideyaca səsləşən spinozizm və vəhdəti-vücudun varislik əlaqələrinə əsaslanan müqayisəli təhlilinə həsr olunmuş araşdırmaların azlığıdır. Eləcə də, bu azsaylı tədqiqat əsərlərinin, müqayisə olunan konkret fəlsəfi problemlər, Spinoza irsinin Şərq fəlsəfəsi ilə bağlılığına məhəl qoyulmadan sırf Qərb fəlsəfəsi kontekstində qəbulu və həm də araşdırmaların vəhdəti-

vücud təliminin hər hansı bir konkret nümayəndəsi ilə məhdudlaşdırılması da, bu sahədə kompleks şəkilli müqayisəli təhlillərin aktuallığını artırır. Müxtəlif fəlsəfi təlimlərin kompleks şəkildə müqayisəli təhlilə cəlb edilməsisə, müasir fəlsəfə tarixinin də qarşısında duran ən aktual problemlərdən biridir.

Tədqiqatın aktuallığını artıran digər xüsusi bir məqam da ümumilikdə Spinozanın özünəməxsus fəlsəfi irsidir. Belə ki, keçmiş Sovet dönəmində dövrün tələbləri olan ateizm və materializmə cavab verməkdən ötrü fəlsəfə tarixçiləri tərəfindən spinozizm bəzi hallarda təhrifli formada da şərh olunmuşdur. Filosofun əsərlərindəki bir çox mühüm fəlsəfi problemlərsə, kifayət qədər subyektiv tərcümə edilmişdir.

Dissertasiyada Spinozanın fəlsəfi əsərlərinin, xüsusən də çox vaxt fəlsəfə tarixçiləri tərəfindən onun fəlsəfi sisteminin yekunu kimi də qiymətləndirilən "Etika"nın latın dilindəki əlyazması və filosofun "Etika" da daxil olmaqla, digər fəlsəfi traktatlarının ingilis dilində olan ən müasir tərcüməsinə müraciət olunmuşdur. Spinozanın ümumi fəlsəfi görüşlərinin və eləcə də sırf panteizm fəlsəfəsinin araşdırılaraq təhlil edilməsində birbaşa olaraq filosofun irsinin öyrənilməsi ilə məşğul olan çoxsaylı spinozaşünasların, əsasən son illərdə ortaya qoyduqları araşdırma və tədqiqat əsərlərinə üstünlük verilməsi də dissertasiyanın aktuallığını artırır.

Dissertasiyanın aktuallığına təsir edən şərtlərə aşağıdakıları da əlavə etmək olar:

- Spinozizm və vəhdəti-vücudun birbaşa müqayisəyədək ayrılıqda müxtəlif fəlsəfi problemlər əsasında geniş təhlili, eləcə də müəllif mövqeyi əsasında müstəqil şərhi, fəlsəfə tarixində öz aktuallıqları ilə seçilən bu təlimlərin hər ikisinin ümumi mahiyyətləri haqqında yeni bir baxış bucağı formalaşdırır.
- Spinozanın fəlsəfəsi və eləcə də vəhdəti-vücud təlimindəki bəzi məsələlərdə qaranlıq qalan müəyyən məqamlar (məsələn, Spinozadakı ikili təbiətlər paradoksu, ideyanın ideyası problemi, vəhdəti-vücuddakı sabit arxetiplər məsələsi, yaradılışın hər an yenilənməsi ideyası və s.) müqayisə olunan müxtəlif fəlsəfi problemlər əsasında kifayət qədər aydınlaşır.

- Fəlsəfə tarixində daima olduqca mübahisəli məsələlərdən biri kimi qalmaqda davam edən panteizm və vəhdəti-vücudun eyniyyəti və ya fərqliliyi sualına da müəllif mövqeyi əsasında müəyyən aydınlıq gətirilir.

Spinozanın fəlsəfi sistemindəki əsas ontoloji və qnoseoloji problemlər, yaradan və yaradılan təbiətlər məsələsi, spinozizmin immanentlik prinsipi, Spinozanın paralellik qanunu, substansiya, atributlar, sonsuz və sonlu moduslar problemi, Spinozanın fəlsəfi sistemindəki həndəsi metodlar, "Deus sive natura", "facies totius universi", "conatus", "amor Dei intellectualis" kimi əsas anlayışların təhlili, ideya və ideat dualizmi, spinozizmdə həqiqət problemi, azadlıq məsələsi, intuitiv bilik, affektlər sualı, əxlaq problemi və s. bu kimi mühüm fəlsəfi məsələlər; R.Popkin, R.Skruton, E.Yakira, A.Damasio, S.B.Smit, M.Kisner, M.Le Buffe, S.Konnelli, V.Viljanen, Y.Y.Melamed, E.Marşal, Y.Jobani, J.Valler, A.S.Kampos, E.Harris, A.Donaqan, E.Kerli, J.Bennett, R.Meyson, H.Allison, R.Delaunti, Ç.Carret, M.D.Rokka, C.Huenemann, N.Brenner-Qolomb, S.Nadler, Ş.Devo, B.Lord, C.T.Kuk, U.Montaq, T.N.Ballok, A.Qarret, V.van Bunge, C.Miller, B.Ştalberq və digər spinozizm araşdırıcıları tərəfindən xüsusi olaraq tədqiq edilmişdir.[1]

---

[1]Popkin, R.H. Spinoza / R.H.Popkin. – Oxford: Oneworld Publications, – 2004. – 153 p.; Scruton, R. Spinoza / R.Scruton. – Oxford: University Press, – 2002. – 129 p.; Yakira, E. Spinoza and the Case for Philosophy / E.Yakira. – Cambridge: University Press, – 2015. – 283 p.; Damasio, A. Looking for Spinoza: Joy, sorrow, and the feeling brain / A.Damasio. – Orlando: Harcourt, Inc, – 2003. – 355 p.; Smith, S.B. Spinoza's Book of Life: Freedom and Redemption in the Ethics / S.B.Smith. – New Haven: Yale University Press, – 2003. 322 p.; Kisner, M.J. Spinoza on Human Freedom: Reason, Autonomy and the Good Life / M.J.Kisner. – Cambridge: University Press, – 2011. – 261 p.; Le Buffe, M. From Bondage to Freedom: Spinoza on Human Excellence / M.Le Buffe. – Oxford: University Press, – 2010. – 253 p.; Connelly, S. Spinoza, Right and Absolute Freedom / S.Connelly. – New York: Birkbeck Law Press, – 2015. – 242 p.; Viljanen, V. Spinoza's Geometry of Power / V.Viljanen. – Cambridge: University Press, – 2011. – 194 p.; Melamed, Y.Y. Spinoza's Metaphysics: Substance and Thought / Y.Y.Melamed. – New York: Oxford University Press, – 2013. – 234 p.; Marshall, E. The Spiritual Automaton Spinoza's Science of the Mind / E.Marshall. – Oxford: University Press, – 2013. – 242 p.; Jobani, Y. The Role of Contradictions in Spinoza's Philosophy: The God-intoxicated heretic / Y.Jobani. – New York: Routledge, –

Vəhdəti-vücud təlimi və bu təlimin əsas nümayəndələrinin zəngin fəlsəfi irsi də çoxsaylı dünya tədqiqatçıları tərəfindən müxtəlif aspektlərdən araşdırılmışdır. Vəhdəti-vücud təliminin əsas fəlsəfi ideyaları, ən tanınmış nümayəndələrinin görüşləri, bu fəlsəfi görüşlərdəki oxşar və fərqli məqamların təhlili, vəhdəti-vücudu ifadə edə biləcək müvafiq Qərb terminlərinin seçimi zamanı ortaya çıxan problemlər və s. bu kimi mühüm məsələlər; Ə.Ə.Konuk, M.Tahralı,

---

2016. – 200 p.; Waller, J. Persistence through Time in Spinoza / J.Waller. – Lexington: Lexington Books, – 2012. – 126 p.; Campos, A.S. Spinoza's Revolutions in Natural Law / A.S.Campos. – Basingstoke: Palgrave Macmillan, – 2012. – 205 p.; Harris, E. The Substance of Spinoza / E.Harris. – New Jersey: Humanities Press, – 1995. – 243 p.; Donagan, A. Spinoza / A.Donagan. – New York: Harvester Wheatsheaf, – 1988. – 238 p.; Curley, E. Behind the Geometrical Method / E.Curley. – Princeton: University Press, – 1988. – 175 p.; Bennett, J. A Study of Spinoza's Ethics / J.Bennett. – Indianapolis: Hackett Publishing, – 1984. – 396 p.; Mason, R. The God of Spinoza / R.Mason. – Cambridge: University Press, – 1997. – 272 p.; Allison, H.E. Benedict de Spinoza: An Introduction / H.E.Allison. – New Haven: Yale University Press, – 1987. – 254 p.; Delahunty, J.R. Spinoza. – London: Routledge & Kegan Paul / J.R.Delahunty. – 1985. – 317 p.; Jarrett, C. Spinoza: A Guide for the Perplexed / C.Jarrett. – London/New York: Continuum Publishing, – 2007. – 226 p.; Della, R.M. Spinoza. The Routledge Philosophers / R.M.Della. – New York: Routledge, – 2008. – 341 p.; Huenemann, C. Spinoza's Radical Theology: The Metaphysics of the Infinite / C.Huenemann. – New York: Routledge, – 2014. – 154 p.; Brenner-Golomb, N. The Importance of Spinoza for the Modern Philosophy of Science / N.Brenner-Golomb. – Heusenstamm: Ontos Verlag, – 2010. – 425 p.; Nadler, S. Spinoza's Ethics: An Introduction / S.Nadler. – Cambridge: University Press, – 2006. – 281 p.; Deveaux, S. The Role of God in Spinoza's Metaphysics / S.Deveaux. – London: Continuum, – 2007. – 142 p.; Lord, B. Spinoza's Ethics An Edinburgh Philosophical Guide / B.Lord. – Edinburgh: University Press, – 2010. – 182 p.; Cook, J.T. Spinoza's Ethics: A Reader's Guide / J.T.Cook. – London: Continuum, – 2007. – 174 p.; Montag, W. Bodies, Masses, Power: Spinoza and His Contemporaries / W.Montag. – London: Verso, – 1999. – 136 p.; Nyden-Bullock, T. Spinoza's Radical Cartesian Mind / T.Nyden-Bullock. – London: Continuum International Publishing Group, – 2007. – 164 p.; Garrett, A.V. Meaning in Spinoza's Method / A.V.Garrett. – Cambridge: University Press, – 2003. – 240 p.; Bunge van, W. Spinoza Past and Present: Essays on Spinoza, Spinozism, and Spinoza Scholarship / W van Bunge. – Leiden: Brill, – 2012. – 256 p.; Miller, J. Spinoza and the Stoics / J.Miller. – Cambridge: University Press, – 2015. – 238 p.; Stahlberg, B. Spinoza's Philosophy of Divine Order / B.Stahlberg. – New York: Peter Lang Publishing, Inc, – 2015. – 201 p.

M.Kanık, A.Smirnov, A.Knış, Ə.Dəmirli, S.Taci-Fəruhi, S.Tvinç, M.Notkat, S.Hirtenşteyn, K.Əzimov, İ.Nəsirov, A.Caffrey, P.Beneito, M.Kazımov, K.Bünyadzadə, M.Bayraqdar, S.Akkaç, E.Sirriyə, R.Okudan, T.Seratlı, S.H.Nəsr, B.Abrahamov, M.İ.Oğuz, R.Landau, U.Çittik, K.Addas, Ə.İpək, S.Əraydın, S.Bəşir, T.Uluç, M.Çakmaklıoğlu, P.Koates kimi alimlər tərəfindən Azərbaycan, türk, rus və ingilis dillərinə tərcümə edilərək geniş şərh olunmuşdur.[1]

---

[1]İbn Arabi. Tedbirat-ı İlahiyye / İbn Arabi. – İstanbul: İz Yayıncılık, – 2013. – 574 s.; İbn Arabi. Arzuların Tercümanı (Tercümanü'l Eşvak) / İbn Arabi. – İstanbul: İz Yayıncılık, – 2013. – 127 s.; İbn Arabi. İlahi Aşk / İbn Arabi. – İstanbul: İnsan Yayınları, – 2013. – 196 s.; Смирнов, А.В. Ибн Араби. Избранное, Т.2 / А.В.Смирнов. – Москва: Языки славянской культуры, – 2014. – 400 с.; Ибн ал-Араби. Мекканские откровения (ал-Футухат ал-маккийя) / Ибн ал-Араби. – Санкт-Петербург: Петербургское Востоковедение, – 1995. – 288 с.; İbn Arabi. Fususu'l-Hikem / İbn Arabi. – İstanbul: Kabalcı Yayıncılık, – 2013. – 536 s.; İbn Arabi. Fütuhat-ı Mekkiyye Cilt I / İbn Arabi. – İstanbul: Litera Yayıncılık, – 2015. – 487 s.; İbn Arabi Fütuhat-ı Mekkiyye Cilt II / İbn Arabi. – İstanbul: Litera Yayıncılık, – 2014. – 472 s.; Konevi, S. Füsusu'l-Hikemin Sırları (el-Fükuk fi Esraı Müstenidati Hikemi'l-Fusus) / S.Konevi. – İstanbul: İz Yayıncılık, – 2012. – 163 s.; Konevi, S. Vahdet-i Vücud ve Esasları (en-Nusus fi Tahkiki Tavri'l-Mahsus) / S.Konevi. – İstanbul: İz Yayıncılık, – 2012. – 111 s.; Nablusi, A. Gerçek Varlık: Vahdet-i Vücud'un Müdafaası / A.Nablusi. – İstanbul: İz Yayıncılık, – 2009. – 360 s.; Ibn Arabi. A Prayer for Spiritual Elevation and Protection / Ibn Arabi. – Oxford: Anqa Publishing, – 2006. – 140 p.; Ibn Arabi. Contemplation of the Holy Mysteries / Ibn Arabi. – Oxford: Anqa Publishing, – 2001. – 128 p.; Ibn Arabi. Divine Sayings 101 Hadith Qudsi The Mishkat al-Anwar of Ibn Arabi / Ibn Arabi. – Oxford: Anqa Publishing, – 2004. – 110 p.; Ibn Arabi. The Four Pillars of Spiritual Transformation / Ibn Arabi. – Oxford: Anqa Publishing, – 2008. – 57 p.; Азимов, К. Проблема человека в религиозно-философских доктринах зороастризма и ислама / К.Азимов. – Баку: Леттерпресс, – 2009. – 304 с.; Насыров, И.Р. Ибн Араби: Избранное, Т.1 / И.Р.Насыров. – Москва: Языки славянской культуры, – 2013. – 216 с.; Ibn Arabi. The Secrets of Voyaging / Ibn Arabi. – Oxford: Anqa Publishing, – 2015. – 325 p.; Ibn Arabi. The Universal Tree and the Four Birds / Ibn Arabi. – Oxford: Anqa Publishing, – 2006. – 127 p.; Ibn Arabi. The Seven Days of the Heart / Ibn Arabi. – Oxford: Anqa Publishing, – 2000. – 126 p.; Кязимов, М. Из истории суфийской мысли / М.Кязимов. – Баку: Элм, – 2001. – 184 с.; Bünyadzadə, K. Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk / K.Bünyadzadə. – Bakı: Nurlan, – 2006. – 242 s.; Kayseri, D. Vahdet-i Vücud Felsefesi / D.Kayseri. – İstanbul: M.Ü.İlahiyat Fakültesi Vakfı Yayınları, – 2012. – 357 s.; Akkach, S. Abd al-Ghani al-Nabulusi Islam and the Enlightenment / S.Akkach. – Oxford: Oneworld Publications, – 2007. – 152 p.; Akkach, S. Letters

Panteizm ilə vəhdəti-vücud təlimi arasında birbaşa müqayisəli tədqiqatlar; F.Kam, M.Ə.Əyni, H.Ərdəm və M.Yasa kimi tədqiqatçılar tərəfindən aparılmışdır.[1]

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiyanın obyektini Spinozanın panteizm fəlsəfəsi ilə sufizmin vəhdəti-vücud təlimi arasında müqayisəli təhlil, predmetini isə vəhdəti-vücudun formaca uyğun gəldiyi halda, mahiyyətcə panteizmdən fərqli bir təlim olduğunu fəlsəfi cəhətdən əsaslandırmaq təşkil edir.

---

of a Sufi Scholar: The Correspondence of Abd al-Ghani al-Nabulusi (1641-1731) / S.Akkach. – Leiden: Brill, – 2010. – 556 p.; Sirriyeh, E. Sufi Visionary of Ottoman Damascus: Abd al-Ghani al-Nabulusi, 1641-1731 / E.Sirriyeh. – London: RoutledgeCurzon, – 2005. – 172 p.; Okudan, R. Gelenbevi ve Vahdet-i Vücud / R.Okudan. – Isparta: Fakülte Kitabevi, – 2006. – 205 s.; Vahdet-i Vücud ve Tevhid Hakkında 7 Eskimez Risale / Yayına Hazırlayan. T.G.Seratlı – İstanbul: Furkan Kitaplığı, – 2006. – 288 s.; Nasr, S.H. Three Muslim Sages: Avicenna-Suhrawardi-Ibn Arabi / S.H.Nasr. – New York: Caravan Books, – 1997. – 185 p.; Abrahamov, B. Ibn al-Arabi and the Sufis / B.Abrahamov. – Oxford: Anqa Publishing, – 2014. – 192 p.; Oğuz, M.İ. İslam Tasavvufunda Vahdet-i Vücud / M.İ.Oğuz. – İstanbul: Oğuz Yayınları, – 1995. – 559 s.; Landau, R. The Philosophy of Ibn Arabi / R.Landau. – London: Routledge, – 2008. – 126 p.; Chittick, W.C. Ibn Arabi Heir to the Prophets / W.C.Chittick. – Oxford: Oneworld Publications, – 2005. – 152 p.; Chittick, W.C. Imaginal Worlds: Ibn al-Arabi and the Problem of Religious Diversity / W.C.Chittick. – Albany: State University of New York Press, – 1994. – 208 p.; Addas, C. Ibn Arabi The Voyage of No Return / C.Addas. – Cambridge: The Islamic Texts Society, – 2000. – 134 p.; İpek, A. Vahdet-i Vücut / A.İpek. – İstanbul: Timaş Yayınları, – 1992. – 110 s.; Eraydın, S. Tasavvuf ve Tarikatlar / S.Eraydın. – İstanbul: Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı Yayınları, – 1994. – 505 s.; Bashier, S.H. Ibn al-Arabi's Barzakh: The Concept of the Limit and the Relationship Between God and the World / S.H.Bashier. – Albany: State University of New York Press, – 2004. – 206 p.; Uluç, T. İbn Arabi'de Sembolizm / T.Uluç. – İstanbul: İnsan Yayınları, – 2011. – 327 s.; Çakmaklıoğlu, M. İbn Arabide Marifetin İfadesi / M.Çakmaklıoğlu. – İstanbul: İnsan Yayınları, – 2011. – 576 s.; Coates, P. Ibn Arabi and Modern Thought. The History of Taking Metaphysics Seriously / P.Coates. – Oxford: Anqa Publishing, – 2002. – 203 p.

[1] Kam, F. İbn Arabi'de Varlık Düşüncesi. Vahdet-i Vücud ve Panteizm, İbn Arabi'yi Niçin Severim / F.Kam, M.A.Ayni. – İstanbul: İnsan Yayınları, – 1992. – 237 s.; Erdem, H. Bir Tanrı-Alem Münasebeti Olarak Panteizm ve Vahdet-i Vücud / H.Erdem. – Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları, – 1990. – 126 s.; Yasa, M. İbn Arabi ve Spinozada Varlık / M.Yasa. – İstanbul: Elis Yayınları, – 2014. – 188 s.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyada qarşıya qoyulan əsas məqsəd, Spinozanın panteizm fəlsəfəsi ilə sufizmin vəhdəti-vücud təlimindəki ən başlıca və eləcə də hər iki fəlsəfi təlim üçün ümumi ortaq hesab etdiyimiz fəlsəfi problemlərin tədqiqi, şərhi və müqayisəli təhlilindən ibarətdir.

**Tədqiqat metodları**. Dissertasiyanın əsas nəzəri-metodoloji bazasını fəlsəfi təlimlərarası komparativistik təhlil metodu təşkil edir. Eləcə də, tədqiqat işində ümumiləşdirmə, analogiya və hermenevtik metodlar ilə yanaşı, hipotezlərə əsaslanan xüsusi nəzəri metodlara da yer verilmişdir. Bir sıra sözlərin, xüsusən də terminlərin mənalarının daha geniş açılaraq başadüşülən olması üçün bəzi hallarda semantik təhlil metodundan da istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Dissertasiyada müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

1. Spinozanın bəzi hallarda müvəffəq ola bilməsə də, həndəsi qanunlar və ardıcıl məntiqi mühakimələr əsasında nizamlı şəkildə qurmağa çalışdığı fəlsəfi sistemindəki ən başlıca problemlər və bu fəlsəfi problemlərin nüvəsini təşkil edən əsas prinsiplərin hər birini ayrılıqda təhlil etmək.

2. Spinozanın müxtəlif fəlsəfi məsələləri təbii hadisə və proseslər əsasında şərh edərkən nə üçün fəlsəfi metod kimi panteizm dünyagörüşündən çıxış etməsinin və ümumiyyətlə, filosofun həll etməyə çalışdığı istənilən fəlsəfi məsələdə Tanrı-təbiət eyniliyi prinsipinə müraciət etməsinin səbəblərini spinozizmin öz daxili məntiqi əsasında analiz etmək.

3. Spinozizmdən meydana çıxan paradoksal fikirlər və ilk baxışda olduqca ziddiyyəti görünən məqamlara da mümkün qədər Spinozanın fəlsəfi təliminin ümumi sistemdaxili məntiqi əsasında aydınlıq gətirmək.

4. Vəhdəti-vücud təlimindən spinozizm ilə müqayisə oluna biləcək sırf fəlsəfi problemləri seçib ayıraraq xüsusi təhlil etmək.

5. Vəhdəti-vücud fəlsəfəsinin özünəməxsus məntiq əsasında qurulmasını nəzərə alaraq, bu təlimdə Spinozanın panteizmi ilə müqayisə ediləcək fəlsəfi problemləri bir qədər də ardıcıl təhlil etmək üçün daha mütəşəkkil fəlsəfi sistem olan spinozizmin ümumi modelinə uyğunlaşdırmaq.

6. Bəzi fəlsəfi məsələlərin həllində Spinozanın panteizmi ilə vəhdəti-vücudun kəsişdiyi və kəsişdikdən sonra ayrıldığı ən başlıca məqamları müqayisələr əsasında üzə çıxarmaq.

7. Spinozanın fəlsəfəsində özünü tam şəkildə əks etdirən panteizm fəlsəfəsi və vəhdəti-vücud təliminin mahiyyət etibarı ilə fərqliliyini müqayisələrdən hasil olan məntiqi dəlillər ilə də əsaslandırmaq.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın əsas elmi yeniliyini ümumilikdə Spinozanın fəlsəfi sistemi və sufizmin vəhdəti-vücud təliminin müxtəlif fəlsəfi problemlər əsasında müqayisəli təhlilə cəlb edilməsi təşkil edir. Tədqiqat işindəki digər yeniliklərə aşağıdakıları da əlavə etmək olar:

1. Çoxsaylı spinozaşünaslar tərəfindən Spinozanın fəlsəfəsində ən ziddiyyətli məqamlar kimi dəyərləndirilən: formal və obyektiv varlıqlar, aktual mövcudluq, həqiqi və adekvat ideyalar və ideyanın ideyası problemi spinozizmdən kənar, daha çox vəhdəti-vücud təliminin məntiqi əsasında şərh edilir.

2. Vəhdəti-vücudun ardıcıl olmasa da, ümumilikdə spinozizm qədər tam əsaslı fəlsəfi təlim olması faktı tutarlı məntiqi dəlillər ilə əsaslandırılır.

3. Vəhdəti-vücudun Qərb fəlsəfi təlimləri ilə eyniyyəti istisna edən prinsiplər əsasında da müqayisəsinin bilavasitə mümkünlüyü ortaya qoyulan arqumentlər ilə sübuta yetirilir.

4. XX əsrədək Qərbdə vəhdəti-vücud təliminin panteizm fəlsəfəsi kimi dəyərləndirilməsində xristianlığın özünəməxsus dini-fəlsəfi cərəyanlarından olan sosinianizmin xüsusi rolunun olması fərziyyəsi ilk dəfə irəli sürülərək məlum olan tarixi faktlar əsasında təhlil edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat işi digər fəlsəfi təlimlər arasında bənzər müqayisəli təhlillərin aparılmasında nəzəri baza rolunu oynayır. Dissertasiyada aparılan araşdırma və təhlillərin mədəniyyətlərarası dialoqlar üçün praktik əhəmiyyəti də təqdirəlayiqdir. Eləcə də, tədqiqat işi komparativistik problemlərə dair müxtəlif elmi əsərlərin yazılmasına, fəlsəfə tarixinə aid dərs vəsaitlərinin tərtib edilməsinə, o cümlədən də, müvafiq

profil üzrə mütəxəssislər hazırlayan təhsil və elmi-tədqiqat müəssisələrinin işində də yardımçı vasitə kimi istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi**. Tədqiqatın ümumi məzmunu, əsas müddəaları və başlıca yenilikləri məqalələr şəklində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) norma və tələblərinə uyğun yerli və xarici jurnallarda, eləcə də respublika və beynəlxalq səviyyəli elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun "Azərbaycan fəlsəfə tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**: Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 5 səhifə, birinci fəsli 44 səhifə, ikinci fəsli 44 səhifə, üçüncü fəsli 20 səhifə, nəticə hissəsi 4 səhifə, ədəbiyyat hissəsi 22 səhifədən ibarətdir. Dissertasiya işi ümumilikdə 142 səhifə, 232,925 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metdoloji əsasları, elmi-nəzəri və praktiki əhəmiyyəti öyrənilmişdir.

Dissertasiyanın birinci fəsli **"Spinozanın panteizmi"** adlanır. Bu fəsil iki bölmədən ibarətdir. **"Spinozizmdə Tanrı və təbiət problemi"** adlanan birinci yarımfəsildə, Benedikt Spinozanın (1632-1677) fəlsəfi sistemindəki əsas ontoloji problemlərə nəzər salınmışdır. Spinozizmin substansiya-Tanrı-təbiət sualı, məşhur "Deus sive Natura" düsturunun fəlsəfi mahiyyəti, sonsuz və sonlu moduslar problemi, immanentlik prinsipi, yaradan (Natura Naturans) və yaradılan (Natura Naturata) təbiətlər dixotomiyası, spinozizmin forma, struktur və sistemcə panteizm fəlsəfəsinə çevrilməsi tədqiq olunmuşdur.

Bu yarımfəsildə qeyd olunur ki, Spinozanın fəlsəfi sistemində mütləq varlıq substansiyadır. Spinozaya görə, *substansiya həm də Tanrıdır.*[1] Bu cəhətdən, substansiyaya aid olan bütün xüsusiyyətlər mütləq şəkildə Tanrıya da aiddir. Spinozanın sistemində Tanrı və ya substansiya eyni ilahi həqiqəti ifadə edən fərqli terminlərdir. Spinoza yazır ki, *Tanrı həm də təbiətdir.*[2] Beləliklə, Spinozanın riyazi qanunlara tabe olan fəlsəfi sisteminin tələblərinə görə, təbiət Tanrıda, Tanrı da təbiətdə mövcuddur. Bu ideya isə xalis spinozizmdir. "Deus sive natura" və ya Tanrı-təbiət ideyasıdır. Fikrimizcə, Tanrı=təbiət Spinozanın panteizmini formaca ifadə edən ən əsas düsturdur. Spinozizmdə Tanrı qanun, qanunlar isə təbiətdir. Bu sistemdə təbiət qanunları ilə ilahi qanunlar eynidir. İlahi və təbiət qanunları eyni olduğundan Tanrı həm də təbiətdir. A.Qarretin də vurğuladığı kimi, *fiziki qanunlar Spinozanın başa düşdüyü təbiət qanunlarının bir qismidir.*[3] Bu cəhətdən, spinozizmin Tanrısı qətiyyən dinin Tanrısı deyil. Spinozanın Tanrısı ənənəvi olaraq qəbul olunmuş, "yuxarıdan aşağı" fəaliyyət göstərən ilahi deyil. Bu Tanrı qüvvədir, təzahürlər, fəaliyyətlər və hərəkətlərdədir. Spinozizm Tanrı və təbiəti Tanrı-təbiət kimi başa düşən təlimdir.

Spinozaya görə, *atributlar substansiyanın mövcudluq formalarıdır.*[4] Spinozanın fəlsəfi sisteminin tələblərinə görə, atributlar həm də, substansiyanın mövcudluq xüsusiyyətləridirlər. Atributlar substansiyanın ilahi törəmələri olmaqla, onun varlığının sonsuz formalarda mövcudlar-moduslara daşıyıcılarıdırlar. Spinozaya görə, atributlar mənəvi və maddidir. Spinozizmdə Tanrının mənəvi atributu düşüncə atributudur. Tanrının maddi atributu isə, maddi təbiətdən olduqca geniş olan maddilikdir. Fikrimizcə, Spinozanın panteizminin ikinci əsas məqamı Tanrı və maddi, yəni yertutarlıq atributu məsələsindən hasil olan məntiqi

---

[1] Spinoza Complete Works / Translations by S.Shirley – Cambridge: Hackett Publishing Company, Inc, – 2002. – s.224.

[2]Yenə orada, – s.321.

[3] Garrett, A.V. Meaning in Spinoza's Method / A.V.Garrett. – Cambridge: University Press. – 2003. – s.29.

[4] Spinoza Complete Works / Translations by S.Shirley – Cambridge: Hackett Publishing Company, Inc, – 2002. – s.230.

nəticədədir. Substansiyaya daxil və substansiyanın daxil olduğu atributlar, Spinozanın fəlsəfi sistemini strukturca panteizm edən ikinci əsas düsturdur.

Spinozaya görə, substansiya təbiətdə məlum atributların sonsuz sayda şəkildəyişmiş sonlu formaları ilə təzahür edir. Yertutarlıq atributu maddi çoxluqları əmələ gətirərək maddi təzahürlərdə bilindiyi kimi, düşüncə atributu da maddilərin ideyaları (formaları) kimi onlarda və onlarla təbiətdə təzahür etmiş olur. Spinoza substansiyanın belə sonsuz xassə və şəkildəyişmələrini sonlu moduslar adlandırır. L.Lermond hesab edir ki, *Spinozada moduslar Tanrının fəaliyyət məhsullarıdır.*[1] Spinozanın fəlsəfi sistemindəki sonsuz moduslar isə, vahid substansiyanın saysız-hesabsız xassə və şəkildəyişmələri olan sonlu modusları birbaşa törədərək, həm də idarə edən xüsusi qüvvələrdirlər. Maddi və mənəvi atributların daha böyük "yığınları" olan sonsuz moduslar, sonluları gerçəkliyə yerləşdirən ən ümumi mövcudluq üsullarıdırlar. Spinozanın fəlsəfi sistemində birinci sonsuz modus sonsuz intellekt (intellectus infinitus) və ya Tanrının sonsuz ideyası (infinita idea Dei), ikinci sonsuz modus hərəkət və onunla birgə sükunət (motus et quies), üçüncü sonsuz modusu isə, sonsuz müxtəlifliklərə malik olan maddi təbiətdir (facies totius universi).

Spinoza yazır ki, *Tanrı aləmin immanent (daxili-Z.R.) səbəbidir.*[2] Fikrimizcə, immanentlik prinsipi spinozizmi sistemcə bütövlükdə xalis panteizm edən üçüncü mərhələdir. Y.Yovel də doğru olaraq vurğulayır ki, *Spinozanın immanentlik prinsipi yaradan və yaradılan dualizmini də məhv edir.*[3] Bu cəhətdən, spinozizmdə yaradan təbiət kimi tərcümə olunan "natura naturans", yəni yaradıcı substansiya və ya Tanrı-təbiət paradoksal şəkildə yaradılan təbiət olan "natura naturata" ilə üst-üstə düşür.

Spinoza yazır ki, *modusları dərk etmək ilə Tanrını da dərk*

---

[1]Lermond, L. The Form of Man: Human Essence in Spinoza's Ethic / L.Lermond. – Leiden: Brill, – 1988. – s.42.

[2]Spinoza Complete Works / Translations by S.Shirley – Cambridge: Hackett Publishing Company, Inc, – 2002. – s.229.

[3]Yovel, Y. The Infinite Modes and Natural Laws in Spinoza // God and Nature: Spinoza's Metaphysics / Y.Yovel. – Leiden: Brill, – 1991. – s.80.

*etmək olar.*[1] Bu halda, spinozizm maddi aləmin batinində olan və zahirində (immanent olduğundan) görünən Tanrı haqqında təlimdir. Bu təlimdə Tanrı moduslarından fərqli yox, onlar ilə bir məkanı bölüşən substansiyadır. Spinozanın fəlsəfi sistemindəki iki fərqli təbiət sonda dönüb birin üstündə durur. Təbiətlər də birlənir. Sonsuz maddi modus olan ikinci təbiət birinci təbiət və ya substansiya-Tanrını özündə əridir.

Birinci fəslin ikinci yarımfəsli **"Spinozizmdə vəhdət və azad insan problemi"** adlanır. Dissertasiyanın bu yarımfəslində spinozizmin mühüm qnoseoloji problemlərindən olan, ideya-ideat dualizmi, formal (esse formale) və obyektiv (esse objectivum) varlıqlar, aktual mövcudluq (essentia actualis), həqiqi (idea vera) və adekvat (idea adaequata) ideyalar, ideyanın ideyası (ideae idearum), intuitiv bilik (scientia intuitiva), əbədilik forması altında dərketmə problemi (sub specie aeternitatis), insanın kamilləşərək əqlin rəhbərliyi altında fəaliyyəti (sub ductu rationis), Tanrını dərketmə sevgisi (amor Dei intellectualis) kimi məsələlər tədqiq olunmuşdur.

Bu yarımfəsildə qeyd olunur ki, Spinozaya görə, bütün sonlu moduslar iki məlum atributun sonsuz xassələrinə əsasən ideya və ideatdan təşkil olunmuşdurlar. Spinozaya görə, *ideyalar düşünən ruhun (təfəkkür nəzərdə tutulur-Z.R.) anlayışları, ideatlar isə öz ideyalarına uyğun gələn obyektlərdirlər (sırf maddi sonlu moduslar-Z.R.).*[2] Spinozizmdə ideya ideatın görünməz həqiqət qəlibi, ideat isə, ideyanın mövcudluq formasında izhar olunaraq görünən həqiqətidir. Spinozada ideat ideyasına düz mütənasib olaraq dərk olunan maddi modus, ideya isə, dərk olunmuş bu düz mütənasibliyin özüdür. E.Yakira hesab edir ki, *Spinozadakı ideya və ideat qnoseoloji və ontoloji olanların vəhdətidir.*[3]

Spinoza varlıqları formal və obyektiv olaraq iki yerə bölür. Spinozaya görə, formal varlıq mahiyyətcə həqiqi və gerçək maddi sonlu modusdur, ideatdır. Amma məntiqi cəhətdən formal varlıq

---

[1] Spinoza Complete Works / Translations by S.Shirley – Cambridge: Hackett Publishing Company, Inc, – 2002. – s.374.

[2] Yenə orada, – s.244.

[3] Yakira, E. Spinoza and the Case for Philosophy / E.Yakira. – Cambridge: University Press, – 2015. – s.145.

ideatdan fərqlidir. Belə ki, əgər, ideat sırf maddi mövcudluqdursa, formal varlıq təkcə mövcudluq deyil. Yəni ideya və ideatın həmahəng vəhdətinə maddilik bucağından baxdıqda görünən mövcud ideatdırsa, onu mənəvidən də ayırmadan, ideyası ilə birgə düşünərək, dərk etmə prosesinə daxil etdikdə o, artıq sadəcə ideat yox, formal varlıqdır. Spinozada obyektiv varlıq isə, maddi modusu maddilik keyfiyyətindən təmizləyərək ideya kimi ayırdıqdan sonra idrakda qalan varlıqdır, ideyadır. Amma xalis ideya da deyil. Çünki bu ideyanın obyekti də mövcuddur. Obyektiv varlıq ideatda olan ideyanı təcrid olunmuş şəkildə düşünmək, əqldən tənzih olunmuş ideatada ancaq ideyanı seyr etməkdir. Spinozizmdə formal varlığın formallığı maddi modus olan ideatdan çıxıldıqda yerdə qalan ideya obyektiv varlıqdır. Spinozizmdə aktual mövcudluq sıradan bir modus olmaqla, dərketmə prosesi üçün seçilərək ayrılmamış modusdur. Spinozaya görə, *həqiqi ideya öz obyektinə (ideatına-Z.R.) uyğun olan ideyadır.*[1] Yəni ideya və ideat qovuşaraq təfəkkür məkanına formal varlıq kimi daxil olub dərk olunduqdan sonra, bu vəhdətdən də formal varlığın öz yeni ideyası doğulur ki, bu da spinozizmdə həqiqi ideydır. Spinozaya görə, *adekvat ideya, obyektdən (ideat-Z.R.) asılı olmadan özündə həqiqi ideyanın bütün xassə və əlamətlərinə malik olan ideyadır.*[2] Yəni ideya-ideat formal varlıq kimi təfəkkür məkanına daxil olaraq, orada formal varlığın öz həqiqi ideyası kimi qalsa da, "ideatlıq" və "formallıqdan" təmizlənmiş obyektiv varlığın da, təfəkkür məkanına daxil olmadan, ondan kənarda həqiqi, amma dərk olunmamış ideyası da vardır ki, bu ideya da adekvat ideyadır. Spinozaya görə, *ideyanın ideyası düşüncə atributunun sonsuz modusundakı (ideyalar aləmi-Z.R.) bütün ideyaların formasıdır.*[3] Yəni spinozizmdə sonsuz modus olan Tanrının ideya bazasında adekvat ideyalardan başqa, həm də hələ ideatı, ümumiyyətlə, yaradılmayan ideyalar da mövcuddur. Spinozaya görə, *"scientia intuitiva" formal varlığın adekvat ideyasından törəyən bilikdir".*[4]

---

[1] Spinoza Complete Works / Translations by S.Shirley – Cambridge: Hackett Publishing Company, Inc, – 2002. – s.218.

[2] Yenə orada, – s.244.

[3] Yenə orada, – s.259.

[4] Yenə orada, – s.267.

Yəni fəhmi olaraq qazanılan "scientia intuitiva", ruh ilə birbaşa sonsuz ideyalar aləmindən idraka "daşınan" və idrakda həqiqi ideyalar kimi gerçəklik qazanan adekvat ideyalar haqqında bilikdir. Spinozanın intuitiv biliyi Tanrı haqqında bilavasitə və birbaşa bilikdir.

Spinoza yazır ki, *intuitiv bilikdən törəyən Tanrını dərketmə sevgisi həm də Tanrının əbədiliyini dərk etməkdir.*[1] Yəni Tanrını dərketmə sevgisi sonlunun-insanın, sonsuzun-Tanrının bir hissəsi olması həqiqətini dərk edərək, özünü də bu vəhdətdə kəşf etmək həzzidir. B.Rassel yazır ki, *Spinozanın "amor Dei intellectualis"i intellektual kəşfdir.*[2] Spinozada Tanrını dərketmə sevgisi həm də təbii nizama valeh olmaq və təbiətdəki həmahəngliyi və qanunauyğunluqları da sevməkdir.

Dissertasiyanın birinci fəsildə gəlinən əsas nəticələrin yekun xülasəsi ondan ibarətdir ki, Spinozanın fəlsəfi sistemi ümumilkdə panteizm fəlsəfəsidir. Tanrının iki artibutu və onların sonsuz modusları bu panteizm və ya spinozizmi quran vacib elementlərdir. Təlimə görə, məlum atributların sayı iki olsa da, məchulların sayı sonsuz saydadır. Spinozizmdə Tanrı və sonsuz modus olan təbiət məntiqi olaraq eynianlamlıdır. Spinozanın təlimində Tanrı-təbiət ideyaları olan sonsuz ideatlar toplusundan ibarətdir. Spinozizmdə təbiətin bir parçası və ya sonlu modusu olan insan daima həyat mübarizəsindədir. Onun bu çətin mübarizəsini asanlaşdıran əsas amil Tanrını dərketmə sevgisidir. Bu sevgi əql yox, yalnız intuitiv bilik vaitəsi ilə mümkündür. Bu təlimdə insanın kamillik yolu Tanrıya olan əbədi sevgidən keçir. Spinozaya görə, insanın həyatdakı əsas amalı tükənməz Tanrı sevgisi ilə yaşamaqdadır. Dissertasiyanın birinci fəslində araşdırılan bu problemlərin hər biri ayrıca məqalələr şəklində də dərc olunmuşdur.[3]

---

[1] Spinoza Complete Works / Translations by S.Shirley – Cambridge: Hackett Publishing Company, Inc, – 2002. – s.377.

[2] Dijn de, H. Spinoza: The Way to Wisdom / H.de Dijn. – West Lafayette: Purdue University Press, – 1996. – s.259.

[3] Rəşidov, Z. Spinozanın fəlsəfəsində ideya problemi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2015. № 4, – s.131-138.; Rəşidov, Z. Spinozanın fəlsəfəsində intuitiv idrak (scientia intuitiva)

Dissertasiyanın **"Sufizmin vəhdəti-vücud təlimi"** adlanan ikinci fəsli iki bölmədən ibarətdir. **"Vəhdəti-vücudda varlıq və yoxluq problemi"** adlı birinci yarımfəsildə, vəhdəti-vücudun genezisi, bu təlimdəki əsas terminlərin Qərb dillərinə semantik tərcümə məsələsi, panteizm və vəhdəti-vücudun eyniyyəti probleminin meydana çıxma tarixi, vəhdəti-vücud təliminin inkişafında Mühyiddin ibn Ərəbinin (1165-1240) rolu araşdırılmışdır. Təlimin əsas ontoloji problemlərindən olan, varlıq və yoxluq, vəhdət və kəsrət, məna və surət, zahir və batin, zat və üluhiyyət, təcəlli məsələsi, aləmin halları problemi, təlimdəki ziya, kölgə, xəyal və ayna metaforaları fəlsəfi cəhətdən tədqiq edilmişdir.

Bu yarımfəsildə qeyd olunur ki, varlığın və ya vücudun vəhdəti kimi tərcümə olunan vəhdəti-vücuda görə, vahid varlıq və ya varlığa sahib yeganə vücud Tanrıdır. Aləm bu tək varlığın görüntülər məkanı, aləmdəki bütün mövcudluqlar isə vahidin sonsuz təzahürləridir. Bu cəhətdən, vəhdəti-vücud varlıqların yox, varlığın birliyi haqqında təlimdir, yoxluqda təcəlli edən varlıq-Tanrı haqqında elmdir. Vəhdəti-vücud vücudun varlıq kimi vəhdətindən bəhs edən fəlsəfədir. Bu fəlsəfədə vəhdət, vəhdətə daxil olan tərəflərin bərabərliyi və ya birliyi demək deyil. Vəhdəti-vücud cəmlənmə, birlənmə, birləşmə və eyniyyət qanunlarına tabe olmadığından, nəticədə ondan ikinin hasil olması da mümkünsüzdür. Bu təlimin çağırışı, "Tanrını aləm ilə birləşdirmək" deyil. Aləmdəki hər bir mövcudun surətində Tanrını görmək, bu mövcudların əslində yoxluqda olduğunu dərk edərək, onlardakı vahid həqiqət olan varlığı-Tanrını seyr etməkdir.

---

problemi // – Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, – 2016. № 24, – s.211-223.; Rəşidov, Z. Spinozanın fəlsəfi sistemində "conatus" problemi // – Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, – 2016. № 25, – s.169-187.; Rəşidov, Z. Spinozanın fəlsəfi sistemində varlıq problemi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2016. № 4, – s.126-135.; Рашидов, З. Проблема интуитивного познания в философии Б.Спинозы // – Львів: Вісник Львівського університету Філософсько-політологічні студії, – 2017. № 12, – с.125-132.; Rəşidov, Z. Spinozanın fəlsəfəsində Tanrıya olan əqli sevgi probleminin müqayisəli təhlili // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə institutunun Elmi əsərləri, – 2017, № 1 (28), – s.49-58.

İbn Ərəbi "Fütuhatül-Məkkiyyə" əsərində yazır ki, hər şeydə ona aid və onun vahid olduğunu göstərən bir ayət olduğu kimi, hər şeydə ona aid və onun eyni olduğunu göstərən bir ayət də vardır.[1] Bütövlükdə sufizmin, eləcə də, vəhdəti-vücudun ensiklopediyası sayılan bu əsərin öz zəncirvari məntiqinə görə, "Tanrının hər şeydə olması" və "hər şeyin Tanrı olması" fikirləri də əlaqəli şəkildə vəhdətdədir. Bu halda vəhdəti-vücud, varlığın özündə (Tanrı), varlığın yoxluğda (təcəlli) və yoxluğun da özündəki (aləm) əhədiyyət prinsipidir.

Vəhdəti-vücudda Tanrının batin tərəfi məna, öz surətini aləmə təcəllilərdə açır. Surətin təcəllisi ilə məzhərlər həqiqət qazanır, yoxluq qazanılan görüntülər ilə aləmə çevrilir. Bu cəhətdən, vəhdəti-vücudda aləmi yoxluq adlandırmaq doğru olduğu halda, ona yox və ya heçlik demək, aləmi danmaq, onun yoxluğunu yox kimi təsdiq etmək, şərti varlığını isə heçliyə endirmək də doğru deyil. Çünki vəhdəti-vücudda yoxluq da varlıqdır. Bu varlıq vəhdət fəlsəfəsinin əsası olan varlıqla eyni varlıq olmasa da, "varlıqların vəhdətini" təmin etmək üçün vacib yoxluqdur. Vəhdəti-vücudda aləm varlıqla yoxluq arasında bərzəx kimi ikili mahiyyətə malikdir. Bu halda, vəhdəti-vücudda maddilik aləmin özündə yox, özünün də iştirakı ilə qazanılan keyfiyyətdir. Vəhdəti-vücuddakı bu incə məqamı nəzərə alan İ.Mədkur da hesab edir ki, *İbn Ərəbidə aləm ruhi aləmdir, orada maddi heç bir şey yoxdur.*[2] Vəhdəti-vücudda aləm inkar olunmadan qeyri-maddi bir yoxluq və ya laməkan kimi təqdim olunmaqla bütün vücudiyyə (panteizm) ittihamları da mənasını itirir. Beləliklə, vəhdəti-vücudda aləm həqiqətsiz batin, həqiqəti ilə zahir olduğundan, həm də həqiqətsiz məhrum yoxluq, həqiqət ilə mövcud varlıqdır. Belədə, zatında olmayan həqiqəti, öz "zatından da çıxaraq" qazanan aləm iki qütbün vəhdətindədir. Bu qütblərin qovuşması mümkünsüz olduğundan, yoxluq aləm olmaq üçün daima öz zülməti ilə varlıq nurunu özünə çəkməyə məhkumdur.

İbn Ərəbi yazır ki, *aləm işıqla qaranlığın qovuşduğu*

---

[1] İbn Arabi, M. Fütuhat-ı Mekkiyye, Cilt II / İbn Arabi. – İstanbul: Litera Yayıncılık, – 2014. – s.328.

[2] Medkur, İ. İbn Arabi ve Spinozada Vahdet-i Vücud // – İstanbul: İbn Arabi Anısına Makaleler, – 2007. – s.163.

*ziyadadır.* [1] "Ziya" termini vəhdəti-vücudda aləmin necəliyini anlamaqda olduqca vacib anlayışdır. Belə ki, zülmət görməni mümkünsüz etdiyi kimi, saf işıq da eyni xassəyə malikdir. Vəhdəti-vücudda işıq və qaranlıq bir-birini qarşılıqlı kəşf edən "əkslər" kimi bərzəxdə qovuşur, aləm doğulur. Zülmət öz qaranlığı ilə işığa yol açaraq onu bilinən edir. Aləmin zülməti vəhdətin vacib elementi kimi təcəllidə itmədən Tanrının nurunda gizlənir. Yoxluğun zülməti nurda gizlənərək fəaliyyətsiz qalmaqda davam etdiyi müddətcə, aləm ziyada Tanrı əlamətlərinə sahib çıxır. Bu cəhətdən, spinozizmdən fərqli olaraq vəhdəti-vücudda öz maddiliyinə də ziyada və ya vəhdət düyünündə sahib olan aləm maddi olan təbiət yox, orta aləmdir. Bu "maddi" aləm varlıq və yoxluğun kəsişmə nöqtəsidir. Vəhdəti-vücudun aləmi dini və fəlsəfi təlimlərin məkani aləmi deyil. Vəhdəti-vücudda məkanın ölçüsü yoxluqdur.

Digər tərəfdən, vəhdəti-vücuda görə, zülmət birbaşa itmədən və tam olaraq nura da dönmədən çəkildiyindən o, öz kölgə xüsusiyyətlərini də aləmdə saxlamaqda davam edir. Bu cəhətdən, vəhdəti-vücudda aləm kölgə kimi də gerçəklik qazanan varlıqdır. Kölgədə isə bir gizlilik olduğundan mövcud olan aləm aşkar olduğu qədər də gizlidir. Artıq bu aləm gizlilik və aşkarlığın da vəhdətindədir. Vəhdəti-vücud təliminin elə öz gizli məntiqinə görə də, aləm gizli olmasa, o heç vaxt aşkarlanmaz, aşkarlanmasa aşkarı da aşkar etməz.

**"Vəhdəti-vücudda vəhdət və kamil insan problemi"** adlanan ikinci yarımfəsildə vəhdəti-vücud təliminin mühüm qnoseoloji problemlərindən olan, əyani-sabitələr, icad, təcəlligahların istedadı, qəlb, kəşf, himmət kimi anlayışların fəlsəfi mənaları, xəlqül-cədid prinsipi, kamil insan konsepsiyası fəlsəfi cəhətdən tədqiq edilmişdir.

Bu yarımfəsildə qeyd olunur ki, vəhdəti-vücud vacib və mümkün bölgülü yox, vacibin, yəni varlığın vahidliyi prinsipi olsa da, bu təlimdə mümkün də yer almaqdadır. Vəhdəti-vücudda mümkünlər və ya ideyalar əyani-sabitələrdir. Davud Kayseri (1262-

---

[1] İbn Arabi, M. Fütuhat-ı Mekkiyye Cilt II / M.İbn Arabi. – İstanbul: Litera Yayıncılık, – 2014. – s.288.

1350) yazır ki, *əyani-sabitələr isim və sifətlərin görüntüləridir.*[1] Vəhdəti-vücudda əyani-sabitələr ideyalar qismində kəsrətdəki mövcudları üzə çıxararaq onlarda da gizlənirlər, aləmi məlum edib özləri məchul qalırlar. Məchul və mövcudun nizamlı vəhdətidə isə, həqiqət görünüb məlum olur, göz zahir olan həqiqətləri müşahidə edir. Bu cəhətdən, vəhdəti-vücudda aləm həm də, Tanrının əyani-sabitələr ilə icad edilən əksidir. Vəhdəti-vücudda yaradılışın, yəni aləmin əyani-sabitələr ilə icad olunma istedadı, bu prosesin hər an yenilənməsi və bu yenilənmə ilə aləmin də yenidən yaradılışı isə, xəlqül-cədid adlanır.

İbn Ərəbi yazır ki, *gözün gördüyü hər surətdə görünən Haqqın eyni deyil.*[2] Çünki göz yoxluqdandır, gördükdə isə, onun gördüyü mövcuda-zahirə aid olan nisbi keyfiyyətlərdir. Vəhdəti-vücud təlimində məntiqi olaraq mövcuda aid olanla vücudu da görmək mümkünsüz olduğu kimi, bu yolla onu dərk etmək də qeyri-mümkündür. Çünki gözün həqiqətlərinə istinad edən əqlin gerçəyi iki vücud və ya iki candır, "iki vücudda bir can və ya iki canda bir vücud" deyil. Vəhdəti-vücuda görə, gerçək vəhdət mahiyyətlərdə batin olduğu üçün, ona ancaq batini biliklər ilə nüfuz edərək, onu ancaq belə "dərk etmək" olar. Bu cəhətdən İbn Ərəbi "Füsusül-Hikəm" adlı əsərində yazır ki, *əqlin durduğu sərhədi aşan kəşfdir.*[3] Vəhdəti-vücud təliminin tələblərinə görə, göz və əqlin keçə bilmədiyi bütün sərhədləri aşan kəşf üçün həqiqət yolunda heç bir maneə yoxdur. Bu cəhətdən, vəhdəti-vücud sirr və batini biliklərin sirri haqqında da sirli elmdir.

Vəhdəti-vücudda kamil insan vəhdət və kəsrətin birləşdiyi və ayrıldığı nöqtədədir, seçilmiş və sevilmiş bir mövcudluqdur. Aləmin sakini olan insan zülmətdə parlaq bir nöqtədir, Tanrının surətini əks etdirən şəffaf bir aynadır. Bir bərzəx kimi, həm ilahi sirri, həm də kövni aləmi özündə müncər edib, hər ikisinin keyfiyyətlərinə-

---

[1] Kayseri, D. Vahdet-i Vücud Felsefesi / D.Kayseri. – İstanbul: M.Ü.İlahiyat Fakültesi Vakfı Yayınları, – 2012. – s.115.

[2] İbn Arabi, M. Fütuhat-ı Mekkiyye Cilt II / M.İbn Arabi. – İstanbul: Litera Yayıncılık, – 2014. – s.217.

[3] İbn Arabi, M. Fususu'l-Hikem / M.İbn Arabi. – İstanbul: Kabalcı Yayıncılık, – 2013. – s.229.

həqiqətlərinə malikdir. Vəhdəti-vücudda insan vəhdəti öz kəsrətində birləşdirən, həm vəhdətdən, həm də kəsrətdən olan fərqli varlıqdır, surətin surətidir. Bu cəhətdən, İbn Ərəbi də yazır ki, *insanın zahiri xalq, batini Haqqdır.*[1] Fikrimizcə, vəhdəti-vücudun insanı qətiyyən Adəm oğlu da deyil. Onda gildən və sudan əsər-əlamət belə yoxdur. Ümumiyyətlə, təbiətin övladı olan insan vəhdəti-vücudun sualı deyil. Çünki bu təlimdə insanın iki əsas keyfiyyəti maddi-cismi, mənəvi-əqli hər ikisi təkzib olunanlar içərisindədir. Bu mənada kamil insan təbiətin bir hissəsi yox, Tanrının gözdəsidir. Vəhdəti-vücudda insan yoxluqdan və yoxluqda olmayan yeganə kimsədir. Bu kimsənin tək məkanı təcəllidə doğan aləmdir. Bu insan Tanrı və aləmi bir-birinə çəkən qüvvədir. İnsan nöqtəsinə çatan vəhdəti-vücud xalis mistikadır. Mistik fəlsəfədir. Belədə, vəhdəti-vücudda insan kimdir sualının cavabı, insan məcmadır. Özündə cəm etdiyi keyfiyyətlər isə ancaq və ancaq Ondandır.

Vəhdəti-vücudda kamil insan həm də insanpərvərlik nümunəsidir. Tanrının bütün məzhərlərinə vurğun olan bu bəndə, həm də hər şeydə Tanrını da sevəndir. Tanrını zahir kimi, həm də batin görən kamil insan "insaniyyətin də Tanrısıdır". Kamillik yolundan sülük etmiş bu salik insaniyyətə xidmət edən abdullahdır. D.Kayseri də yazır ki, *Haqqı sevmək də hər kəsi sevməkdir.*[2] Eləcə də, bütün insaniyyəti sevən belə kamil insan üçün din və irq fərqləri yoxdur. Bu cəhətdən, İbn Ərəbi də insanları dinlərin birliyə çağırırdı. İnsanlar arasında dini inaclarına görə bölgünü qəbul etmirdi. *Allahın heç bir inanca sığmayacaq dərəcədə böyük və uca olmasını çar çəkirdi.*[3] Vəhdəti-vücuda görə, dinlər, inanclar və onları qəlbində yaşadan insanlar fərqli olsalar da, Tanrı hamı üçün vahiddir, təkdir, eynidir. Bu cəhətdən, vəhdəti-vücud təlimində kamillik dini baxışlara görə yox, səcdə edən dindarın aynasının cilalılıq dərəcəsinə görədir.

Dissertasiyanın ikinci fəsildə gəlinən əsas nəticələrin ümumi

---

[1]İbn Arabi, M. Fususu'l-Hikem / M.İbn Arabi. – İstanbul: Kabalcı Yayıncılık, – 2013. – s.238.
[2]Kayseri, D. Vahdet-i Vücud Felsefesi / D.Kayseri. – İstanbul: M.Ü.İlahiyat Fakültesi Vakfı Yayınları, – 2012. – s.254.
[3]İbn Arabi, M. Fususu'l-Hikem / M.İbn Arabi. – İstanbul: Kabalcı Yayıncılık, – 2013. – s.119.

xülasəsi ondan ibarətdir ki, varlıq mərkəzli vəhdəti-vücud təlimi ümumilikdə əsaslı bir fəlsəfi sistemdir. Bu təlimdə vücud və mövcud eynianlamlı anlayışlar deyil. Bu cəhətdən, vəhdəti-vücud təlimini panteizm fəlsəfəsi kimi dəyərləndirmək tamamən səhvdir. Vəhdəti-vücud təlimində aləm xüsusi bir varlıqdır. Zatı yoxluq olan aləm Tanrının təcəllilər məkanıdır. Aləm əbədi olaraq imkan mərhələsindədir. O, varlıq və yoxluq arasında hər ilahi nəfəsdə yenilənən bir bərzəxdir. Bu təlimdəki insan da fərqli bir varlıqdır. O sıradan bir mövcudluq yox, kamil insandır. Vəhdəti-vücudda kamillik göstəricisinin ölçüsü əql deyil. Kəşf və qəlbin himməti kamilliyin əsas şərtidir. Vəhdəti-vücud İslamın əsası olan tövhid prinsipinin də fəlsəfi cəhətdən izahıdır. Dissertasiyanın ikinci fəslində araşdırılan bu problemlərin hər biri ayrıca məqalələr şəklində də dərc olunmuşdur.[1]

Dissertasiyanın üçüncü fəsli **"Spinozizm və vəhdəti-vücudun müqayisəsi"** adlanır. **"Spinozizm və vəhdəti-vücudun kəsişmə məqamları"** adlı birinci yarımfəsildə, Spinoza və islam, spinozizm və averroizm, Spinoza və ərəbdilli yəhudi fəlsəfəsi, spinozizm və kabbala, spinozizm və Qərb sxolastikası, spinozizm və Antik fəlsəfə, Əndəlisdəki orta əsr ərəbdilli fəlsəfi məktəblər, Norman-Ərəb mədəniyyətinin formalaşması, islam və sufizm, tövhid

---

[1] Rəşidov, Z. Sufizmin vəhdəti-vücud təlimində aləm problemi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2017, № 4, – s.64-74.; Rəşidov, Z. Sufizmin vəhdəti-vücud təlimində varlıq problemi // – Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, – 2017, № 28, – s.183-196.; Rəşidov, Z. Təcəlli sufizmin vəhdəti-vücud təlimində əsas fəlsəfi problem kimi // – Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, – 2018, № 29, – s.177-194.; Rəşidov, Z. Mistik kəşfdən keçən kamillik yolu və ya vəhdəti-vücud fəlsəfəsinin əsas qnoseoloji problemi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2018, № 4, – s.104-115.; Рашидов, З. Учение о единстве бытия (вахдат ал-вуджуд) как философское выражение исламского единобожия (таухид) // – Махачкала: Дагестанский государственный университет, Журнал Исламоведение, – 2019, № 3 (41), Том 10, – с.103-116.; Рашидов, З. Сравнительный анализ религиозно-философских доктрин хуруфизма и единства бытия (вахдат ал-вуджуд) // – София: Институт по философия и социология (ИФС) към БАН, Философски алтернативи, – 2020, Vol XXIX, – с.49-59.

və vəhdəti-vücud, panteizm termininin meydana gəlməsində sosinianizm təliminin rolu, vəhdəti-vücud və yeni-platonçuluq, sufizm və zərdüştilik kimi məsələllər araşdırılmışdır.

Bu yarımfəsildə qeyd olunur ki, XV əsrin sonu və XVI əsrin əvvələrində ərəblərin Avropadan kütləvi şəkildə qovulması ilə Əndəlis mühitinin ərəb dili öz əhəmiyyətini itirmiş olsa da, bu əsrlədə öz inkişafının zirvəsinə çatan Avropa İntibah dövrü unudulmaq üzə olan ərəbdilli fəlsəfəni ivrit dilində qəbul etdi. Bu proses isə ərəbdilli fəlsəfənin mənşə etibarı ilə səfərad yəhudilərindən olan Spinoza yaradıcılığında əks olunmasına təkan verdi. *Spinozanın fəlsəfəsi də müsəlman İspaniyasından qaynaqlanır.* [1] İ.F.Budde (1667-1729) yazır ki, *averroizm spinozizmin Spinozadan əvvəlki formasıdır.*[2] R.Arnaldes qeyd edir ki, *Spinoza ilə İbn Ərəbi arasında birbaşa olmasa da, müəyyən mənəvi yaxınlığın olması şübhəsizdir.*[3]

Fikrimizcə, islam fəlsəfəsinin çoxsaylı qolları olsa da, bütün islam fəlsəfi məktəblərini birləşdirən, eləcə də bu fərqli fəlsəfi təlimlər arasında yaxınlığı törədən əsas mənbə islamın müqəddəs kitabı olan Qurandır. Quranın əsas prinsipləri, demək olar ki, islamın bütün fəlsəfi təlimlərində bu və ya digər dərəcədə öz əksini tapmaqdadır. Bu cəhətdən, sufizm fəlsəfəsi də ümumilikdə islamın əsas prinsiplərindən olan tövhid əqidəsini qabarıq şəkildə əks etdirən cərəyanlardandır. Düşünürük ki, sufizmin əsas fəlsəfi ideyaları birbaşa Qurandan qaynaqlandığı üçün, bu təlimin "təhlükəli səslənən çağırışları" sırf islam mənşəlidir və fəlsəfi anlamda dərk olunduqda heç də islami prinsiplərə zidd deyil. C.Ləlivəla da yazır ki, *İbn Ərəbinin vəhdəti-vücud nəzəriyyəsi islam monoteizminin məntiqi xülasəsidir.*[4] S.H.Nəsr də hesab edir ki, *vəhdəti-vücud təlimi birbaşa*

---

[1]Djedi, Y. Spinoza et l'islam: un etat des lieux // – Quebec: Philosophiques, – 2010. №2, Vol.37, – s.277.

[2]Renaissance Averroism and Its Aftermath: Arabic Philosophy in Early Modern Europe / Editors: A.Akasoy G.Giglioni – New York: Springer, – 2013. – s.260.

[3]Djedi, Y. Spinoza et l'islam: un etat des lieux // – Quebec: Philosophiques, – 2010. №2, Vol.37, – s.278.

[4]Laliwala, J.I. Islamic Philosophy of Religion: Synthesis of Science Religion and Philosophy / J.I.Laliwala. – New Delhi: Sarup & Sons, – 2005. – s.70.

*olaraq islamın “La ilahə illəllah” ifadəsi üzərində qurulub.* [1] N.Tivanə yazır ki, *vəhdəti-vücudun “Allahdan başqa varlıq yoxdur” ideyası panteizm sualını da məhv edir.* [2]

**“Spinozizm və vəhdəti-vücudun ümumi, oxşar və fərqli cəhətləri”** adlı sonuncu yarımfəsildə birinci və ikinci fəsillərdə tədqiq olunmuş əsas fəlsəfi problemlər müqayisəli təhlil üçün seçilmişdir. Bu problemlər də Tanrı, yaradılış, aləm, insan və vəhdət kateqoriyaları altında qruplaşdırmışdır.

Tədqiqat işinin bu fəslində göstərilir ki, Tanrı problemində spinozizm ilə vəhdəti-vücud arasındakı əsas fərqli cəhət ondan ibarətdir ki, spinozizmdə Tanrı immanent, vəhdəti-vücudda isə transsendent bir qüvvədir. Ümumiyyətlə, vəhdəti-vücudda Tanrı öz zatı (məna tərəfi) etibarı ilə daima transsendent qalan varlıqdır. Digər tərəfdən isə, spinozizmin Tanrısı öz qanunlarının zərurətinə də tabe olan Tanrı olduğu halda, vəhdəti-vücudun hər şeyi öz qüdrətinə tabe edən Tanrısı, hər hansı tabeçilikdən tamamilə uzaq bir varlıqdır.

Yaradılış probleminə gəldikdə, spinozizmdə bir fəlsəfi kateqoriya və mütləq bir proses kimi yaradılış mümkündür. Bu təlimdə sonlu moduslar substansiyanın şəkildəyişmələri qismində yaradılanlardır. Vəhdəti-vücudda isə, yaradılış bir fəlsəfi kateqoriya kimi təlimin kontekstinə sığmadığı üçün daima inkar olunur. Ümumiyyətlə, bu təlimdə hər hansı bir yaradılışa yer yoxdur. Çünki, vəhdəti-vücudda fəlsəfi anlamda nə yaradan var nə də yaradılan vardır. Vəhdəti-vücudun fərqli yaradılışı təcəllidir. Təcəllidə yaradılış isə, hər an yenilənən və itən proseslərdə mümkündür.

Aləm probleminə gəldikdə spinozizmdə aləm maddidir. Bu təlimdə maddilik tam müstəqil bir keyfiyyətdir. Həm atribut, həm də sonsuz modusdur. Vəhdəti-vücudun mistik əsasa malik kontekstinə görə isə, maddilik heç bir halda müstəqil xassə deyil. Bu təlimdə madillik də sonsuz təcəllilərdə qazanılan və qazanıldıqda da itirilən nisbi bir keyfiyyətdir.

---

[1]Nasr, S.H. Islamic Philosophy from Its Origin to the Present: Philosophy in the Land of Prophecy / S.H.Nasr. – New York: State University of New York Press, – 2006. – s.74.

[2]Mysticism in East and West: The Concept of the Unity of Being // Compiled and edited by H.Stamer – Lahore: Multimedia Affairs, – 2013. – s.55.

İnsan probleminə gəldikdə, spinozizmdə insan maddi bir varlıq, hər hansı bir modus kimi nəzərdən keçirildiyi halda, vəhdəti-vücudun insanı maddi xassələri özündən tənzih etmiş kamil insandır. Hər hansı bir insan yox, Tanrı tərəfindən seçilmiş bəndədir. Eləcə də, spinozizmdə azadlıq insanın əsas keyfiyyəti, dərk olunmuş zərurətidirsə, vəhdəti-vücudda məhz bu mənada başa düşülən azadlıq şər xassəsi kimi nəzərdən keçirilən kəsrət ünsürüdür.

Vəhdət problemində, spinozizm ilə vəhdəti-vücud arasındakı əsas fərq ondan ibarətdir ki, Spinozanın fəlsəfi sistemində substansional və ya kopulyativ vəhdətin baş verməsi mümkündürsə, vəhdəti-vücudda vəhdət ancaq dəyişən proseslərdədir. Bu təlimin kontekstinə görə substansional vəhdətin baş verməsi qeyri-mümkündür. Substansional və ya kopulyativ vəhdət konsepsiyası vəhdəti-vücud fəlsəfəsinə tamamən ziddir. Bu formalı vəhdətin düşünülməsi vəhdəti-vücudun inkarıdır. Onun panteizm termini ilə əvəz olunmasını qaçılmaz edən ən başlıca amildir.

Dissertasiyanın sonuncu, üçüncü fəsildə gəlinən əsas nəticələrin ümumi xülasəsi ondan ibarətdir ki, spinozizm və vəhdəti-vücud tarixin müəyyən dönəmlərində kəsişmişdir. Spinozanın dünya görüşünün formalaşmasına islam filosoflarının da müəyyən təsirləri olmuşdur. Bununla belə, vəhdəti-vücud təlimi ilə spinozizm arasında dərin fərqlər də vardır. Tanrı, yaradılış, aləm, insan və vəhdət suallarında, bu fərqliliklər aydın şəkildə nəzərə çarpmaqdadır. Dissertasiyanın üçüncü fəslində araşdırılan bu problem məqalə şəklində dərc olunmuşdur.[1]

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın fəsillərində əldə edilmiş elmi-nəzəri müddəalar ümumiləşdirilmişdir. Burada göstərilir ki, spinozizm ilə sufizmin vəhdəti-vücud təlmi arasındakı müqayisəli təhlildə, bu fəlsəfi təlimlərarası formaca bənzərliklər və mahiyyətcə fərqlilikləri üzə çıxararaq onlar arasında mövcud hər hansı tam eyniyyəti istisnaetmə prinsipi, fəlsəfə tarixində daima ziddiyyətlər doğuran məsələlərdən birinə müəyyən aydınlıq gətirir.

---

[1]Rəşidov, Z. Vəhdəti-vücud Şərq və Qərbin vəhdəti kimi // – Bakı: Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dövlət və Din İctimai fikir toplusu, – 2018, № 03 (55), – s.55-65.

Eyni zamanda tədqiqat işində ortaya qoyularaq əsaslandırılan formaca bənzərlik, mahiyyətcə fərqlilik prinsipi qeyd olunan fəlsəfi təlimlər arasındakı mənəvi yaxınlıq və bu yaxınlıqdan irəli gələn müəyyən ümumiliklərin də komparativistik olaraq üzə çıxarılmasına imkan yaradır. Məhz müqayisəli təhlillər zamanı hasil olan bu cəhətlər isə, günümüzün zərurətinə çevrilən mədəniyyətlərarası dialoqlara zəmin hazırlayır.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı tezis və məqalələr nəşr olunmuşdur:**


1. İngilis dilli fəlsəfi ədəbiyyatda Spinozanın "Deus sive Natura" probleminin qiymətləndirilməsi (XX əsrin 60-90-cı illərdə) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2015. № 2, – s.199-206.
2. Qərb tədqiqatçılarının Spinoza fəlsəfəsində yaradılış probleminə münasibəti // – Bakı: Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dövlət və Din İctimai fikir toplusu, – 2015. № 6 (35), – s.95-104.
3. Dünya fəlsəfi fikrində Spinoza metafizikasının feministik şərhi // – Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, – 2015. № 23, – s.249-261.
4. Müasir ingilis dilli fəlsəfi ədəbiyyatda Spinozanın əbədilik, sürəklilik və zaman problemi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Hüquq institutunun Elmi əsərləri, – 2015. № 1 (24), – s.71-79.
5. İbn Ərəbinin əsərlərinin Avropada tədqiqi və nəşri məsələləri // Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri. Azərbaycan Milli Elmlər Akademiyasının 70, Əlyazmalar institutunun 65 illik yubileyinə həsr olunmuş XIV Respublika elmi konfransının materialları, – Bakı: – 22-24 may, – 2015, – s.71-75.
6. Spinozanın fəlsəfəsində ideya problemi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2015. № 4, – s.131-138.

7. Spinozanın fəlsəfəsində intuitiv idrak (scientia intuitiva) problemi // – Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, – 2016. № 24, – s.211-223.
8. Spinozanın fəlsəfi sistemində "conatus" problemi // – Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, – 2016. № 25, – s.169-187.
9. Spinozanın fəlsəfəsində ideya və ideat problemi // – Bakı: Gənclərin Elmi Araşdırmalarına Dəstək ictimai birliyi, "International Journal of Young Researchers", – 2016. – s.119-125.
10. Spinozanın fəlsəfi sistemində təfəkkür həyat mübarizəsində zəruri fenomen kimi // Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr edilmiş, Gənc tədqiqatçıların IV beynəlxalq elmi konfransının materialları, – Bakı: – 29-30 aprel, – 2016, – s.1580-1581.
11. Влияние исламской философии и культуры на Спинозу // Фундаментальные и прикладные исследования: современные научно-практические решения и подходы. Сборник материалов I Международной научно-практической конференции, – Баку-Ужгород-Дрогобыч: – 27-28 октября, – 2016, – с.175-178.
12. Spinozanın fəlsəfi sistemində varlıq problemi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2016. № 4, – s.126-135.
13. Vəhdəti-vücud təliminin inkişafında türk mütəsəffiflərinin rolu // Gənc türkoloqların I Türkoloji qurultayının 90 illiyinə həsr olunmuş "Müasir türkoloji tədqiqatlar: problem və perspektivlər" mövzusunda, Beynəlxalq elmi konfransının materialları, – Bakı: – 21-22 noyabr, – 2016, – s.92-93.
14. Spinozanın fəlsəfi sistemində "amor Dei intellectualis" problemi // – Bakı: Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dövlət və Din İctimai fikir toplusu, – 2017. № 04 (51), – s.87-99.
15. Проблема интуитивного познания в философии Б.Спинозы // – Львів: Вісник Львівського університету

Філософсько-політологічні студії, – 2017. № 12, – с.125-132.

16. Spinozanın fəlsəfəsində Tanrıya olan əqli sevgi probleminin müqayisəli təhlili // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə İnstitutunun Elmi əsərləri, – 2017, № 1 (28), – s.49-58.
17. Sufizmin vəhdəti-vücud təlimində aləm problemi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2017, № 4, – s.64-74.
18. Spinoza və İslam // – Bakı: Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dövlət və Din İctimai fikir toplusu, – 2017, № 6 (53), – s.62-75.
19. Sufizmin vəhdəti-vücud təlimində varlıq problemi // – Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, – 2017, № 28, – s.183-196.
20. Vəhdəti-vücud Şərq və Qərbin vəhdəti kimi // – Bakı: Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dövlət və Din İctimai fikir toplusu, – 2018, № 03 (55), – s.55-65.
21. Benedikt Spinozanin fəlsəfi sistemində insan problemi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Gənc tədqiqatçı Elmi-praktikı jurnalı, – 2018, № 1, IV cild, – s.310-317.
22. Təcəlli sufizmin vəhdəti-vücud təlimində əsas fəlsəfi problem kimi // – Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, – 2018, № 29, – s.177-194.
23. Spinozizmin ontologiyası. // – Bakı: Metafizika, Beynəlxalq fəlsəfi və fənlərarası araşdırmalar jurnalı. – 2018, № 1 (1), – s.116-137.
24. Mistik kəşf sufizmin vəhdəti-vücud təlimində əsas qnoseoloji problem kimi // II International Scientific Conference of Young Researchers, Devoted to the 95-th Anniversary of Azerbaijani National Leader Heydar Aliyev, – Baku: – April 27-28, – 2018, – s.1450-1452.
25. Azərbaycan fəlsəfə tarixinin tədqiqində A.O.Makovelskinin rolu // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının

95-ci ildönümünə həsr olunmuş, “Azərbaycanşünaslığın aktual problemləri” IX Beynəlxalq elmi konfransın materialları, – Bakı: – 3-4 may, – 2018, – s.519-521.
26. Müasir dövrün elmində Spinoza ənənələri // Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar” mövzusunda, I Bakı Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: – 29-30 oktyabr, – 2018, – s.261-265.
27. Müasir dövrün elmində Spinoza izləri // Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar” mövzusunda, I Bakı Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: – 29-30 oktyabr, – 2018, – s.145-153.
28. Sufizmin vəhdəti-vücud təlimi Şərq və Qərbin vəhdəti kimi // İdentiklik və Multikulturalizm: metodologiya, tendensiyalar və perspektivlər beynəlxalq elmi konfransın toplusu, – Bakı: – 2018, – s.214-233.
29. Mistik kəşfdən keçən kamillik yolu və ya vəhdəti-vücud fəlsəfəsinin əsas qnoseoloji problemi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2018, № 4, – s.104-115.
30. Сравнительный анализ религиозно-философских доктрин хуруфизма и единства бытия (вахдат ал-вуджуд) // Поэзия Насими-гимн Человеку: синтез духовно-культурных ценностей Востока и Запада, Материалы Московского форума, посвященного памяти Имадеддина Насими, – Москва: – 1 ноябрь, – 2019, – с.350-359.
31. Avroislam – yeni epistema və ya “Köhnə dünya”da İslam probleminin həllinə cəhd // İslam mədəniyyətində tolerantlıq və onun bəşər mədəniyyətinin inkişafında rolu (Azərbaycan nümunəsi) mövzusunda elmi konfransın materialları, – Bakı: – 2019, – s.113-124.
32. Hürufilik İslamın özünəməxsus ezoterik fəlsəfi təlimi kimi // Nəsiminin fəlsəfəsi və ümumbəşəri dəyərlər, – Bakı: – 2019, – s.424-434.
33. Учение о единстве бытия (вахдат ал-вуджуд) как философское выражение исламского единобожия (таухид) // – Махачкала: Дагестанский государственный

университет, Журнал Исламоведение, – 2019, № 3 (41), Том 10, – с.103-116.

34. Multikulturalizm probleminə fəlsəfi yanaşma // Azərbaycan Milli Elmlər Akademiyasının 75 illiyinə həsr edilmiş Gənc Alim və Mütəxəssislərin İkinci Beynəlxalq Elmi Konfransının materialları, – Bakı: – 03-06 mart, – 2020, – s.461-462.
35. Hürufilik təliminin əsas ideya mənbələri // "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda, V beynəlxalq elmi konfransın materialları, – Bakı-Naxçıvan: – 30 noyabr, – 2020, – s.102-103.
36. Сравнительный анализ религиозно-философских доктрин хуруфизма и единства бытия (вахдат ал-вуджуд) // – София: Институт по философия и социология (ИФС) към БАН, Философски алтернативи, – 2020, Vol XXIX, – c.49-59.
37. Əhməd Yəsəvi irsində vəhdət problemi: eşq fəlsəfəsi kontekstində // "Science and Education: yesterday, today, tomorrow". The X International Scientific Symposium dedicated to the 880th anniversary of Nizami Ganjavi, – Stockholm: – 23 January, – 2021, – s.311-315.
38. Mühyiddin ibn Ərəbinin vəhdəti-vücud təlimində eşq fəlsəfəsi // "Intercultural relations in the modern world". The XI International Scientific Symposium, – Tbilisi: – 27 February, – 2021, – s.190-195.

Dissertasiyanın müdafiəsi ___25___ ___may___ ___2021___ il tarixində saat ___11⁰⁰___ Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143. Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___16___ ___aprel___ ___2021___ il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.04.2021

Kağızın formatı: A5

Həcm: 36062

Tiraj: 100